**İdmançımız 5 qat dünya çempionunu üstələdi**
28.08.13 14:54



Azərbaycan akademik avarçəkəni Aleksandr Aleksandrov Cənubi Koreyanın Çunqju şəhərindəki dünya çempionatında yarımfinala yüksəlib.

Azərbaycan Avarçəkmə Federasiyasından ANS PRESS-ə verilən məlumata görə, 1 nəfərlik qayıqla (M1x) çıxış edən Aleksandrov ¼ final yürüşündə ilk “3-lük”ə düşməyi bacarıb.

Onun rəqibləri arasında 5 qat dünya çempionu və 2012-ci il London Yay Olimpiya Oyunlarının qalibi Meyh Drizdeyl (Yeni Zelandiya), eləcə də 2000-ci il Sidney olimpiadasının bürünc mükafatçısı, 2002-ci ilin dünya çempionu Marsel Hakker (Almaniya) də olub. Hakker finişə hamıdan tez – 6 dəqiqə 57,37 saniyəyə çatıb. 2-ci yeri 6 dəqiqə 59,78 saniyə nəticə göstərən Aleksandrov tutub. Bolqarıstanlı Georgi Bojilov isə 7 dəqiqə 0,21 saniyə göstərici ilə 3-cü olub. Hər 3 avarçəkən əsas yarımfinala vəsiqə qazanıb.